# İslamofobiya ilə mübarizədə qlobal həmrəylik vacibdir

## Bakıda keçirilən konfrans bu baxımdan mühüm əhəmiyyətə malikdir

**Mayın 26-27-də Bakı şəhərində keçirilən "İslamofobiya: Qərəzin ifşası və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq elmi konfrans İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününün üçüncü ildönümünə həsr olunub. Konfrans Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə baş tutur.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, islamofobiyanın siyasi və sosial kökləri, rəqəmsal mediada yayılması və ali təhsil mühitindəki təsirləri dünyada aktual problemə çevrilib. Azərbaycanın bu konfransa evsahibliyi etməsi, ölkənin multikulturalizm və dini tolerantlıq prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciətdə islamofobiyanın artan təzahürlərinə qarşı beynəlxalq səviyyədə birgə mübarizənin vacibliyi vurğulanıb. "Konfransda dünyanın 30 ölkəsindən 130-dan çox alim, ekspert, din xadiminin və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etməsi onun mühüm əhəmiyyətindən xəbər verir. İslamofobiyanın qlobal miqyasda artan təzahürlərinin araşdırılması və bu fenomenlə mübarizə yollarının məhz Azərbaycanda ənənə halını almış tədbirdə müzakirəsi ölkəmizin qlobal problemlərə həssas yanaşmasının göstəricisidir. Konfransda qəbul edilən sənəddə islamofobiya ilə mübarizədə siyasi səviyyədə və ictimai təbliğat yolu ilə əməkdaşlığın gücləndirilməsi, diskriminasiya xarakterli nitqlə mübarizə üçün proqram və layihələrin həyata keçirilməsi kimi tədbirlər nəzərdə tutulub. Konfrans iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edərək burada mədəniyyət və dini abidələrin dağıdılmasının şahidi olması bir daha erməni vandalizminin dünya ictimaiyyətinə tanıdılması istiqamətində doğru addım idi", - deyə deputat bildirib.

P.Vəliyeva qeyd edib ki, XX əsrdə 300 mindən çox azərbaycanlının üç dəfə bir zamanlar əksəriyyət təşkil etdikləri Ermənistan ərazisindən zorla çıxarılması birəsrlik müharibənin acınacaqlı yekunu idi. Müsəlman mədəni irsinin, qəbiristanlıqların vandalizmə məruz qalması, məscidlərin dağıdılması, Ermənistanın etnik təmizləmə yolu ilə ölkəsini mono-etnik və "mono-din" ölkəyə çevrilməsi islamofobiyanın bariz nümunəsidir. Münaqişə ocaqlarından Avropaya pənah gətirən qaçqınların taleyi göz qabağındadır. Bu insanlar xarici müdaxilələrin, müharibə, aclıq və digər səbəblərdən öz yurdlarından köç edir, çətin müharibə şəraitinə dözməyərək Avropaya üz tuturlar. İtirilmiş Avropa dəyərlərinin olduğu bir zamanda isə onlar burada irqçilik, ksenofobiya, islamofobiya ilə rastlaşırlar. Bir çox Avropa liderləri isə öz ölkələrində ayrı-seçkilik olmasını istisna etmir, hətta təsdiq edirlər. Bu, öncə aparılan siyasi kursdan asılıdır. Qanunlar, qaydalar, hətta mənəvi dəyərlər diskriminativ olmamalıdır. Siyasi rəhbərlər məhz tolerantlığı, multikulturalizmi aşılamalıdır. Lakin miqrasiya siyasəti ilə bağlı bir çox neqativ halları insanların dini inanclarına bağlamaq doğru deyil. İnsanlara qarşı ayrı-seçkilik qanunla qadağan olunmalıdır.

P.Vəliyeva bildirib ki, multikulturalizmin və tolerantlığın vətəni olan ölkəmiz və xalqımız bütün dinlərə, irqlərə və mədəniyyətlərə hörmətlə yanaşır və müxtəlif etnik mənsubiyyəti olan insanların konstutision hüquqları dövlət tərəfindən qorunur: "Bu beynəlxalq tədbir islamofobiya ilə mübarizədə qlobal həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qlobal əhəmiyyətli mövzularda öz mövqeyini daim ortaya qoyur və bu mövzuların müzakirə olunduğu platformaların yaradılmasında lokomotivə çevrilir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.- 27 may (№109).- S. 7.